**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**SEYFƏDDİN ƏLİ OĞLU ALTAYLI**

# AZƏRBAYCAN XALQ DEYİMLƏRİNDƏ MİFOLOJİ VƏ TARİXİ ELEMENTLƏRİN ƏKSİ

**10.01.09 – Folklorşünaslıq**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2012**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun «Mifologiya» şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Hüseyn Ələsgər oğlu İsmayılov**
Filologiya elmləri doktoru, professor

**Rəsmi opponentlər:** **Mahmud Qara oğlu Allahmanov**
Filologiya elmləri doktoru
**Xatirə Bədrəddin qızı Bəşirli**
Filologiya elmləri doktoru

**Aparıcı müəssisə**: Bakı Dövlət Universiteti, Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrası

Müdafiə «___» ___________ 2012-ci ildə saat ___ də Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutu nəzdindəki D.01.131. Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Bakı şəhəri, Hüseyn Cavid prospekti 31, V mərtəbə, AMEA Nizami adına Ədəbiyyat İnstitutu.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «____» ______________ 2012-ci il tarixində göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi,
filologiya elmləri doktoru **İmamverdi Yavər oğlu Həmidov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan dilindəki saysız-hesabsız deyim və ifadələr indiyədək xüsusi tədqiqat obyekti olmamışdır. Onların toplanması və nəşri sahəsində müəyyən işlər görülsə də, elmi baxımdan araşdırılması və təsnif edilməsi olduqca vacibdir. Çünki deyimlərdə xalqımızın kosmoqonik inamlarından tutmuş mərasimlərimizlə, etiqadlarımızla, adət-ənənələrimizlə, dünyagörüşümüzlə, tariximiz və etnoqrafiyamızla bağlı çox şeylər öz əksini tapır. Bu mövzunun araşdırılması bir çox maddi və mənəvi dəyərimizin yeni baxış bucağından qiymətləndirilməsi, bəzi tarixi hadisələrin əsil mahiyyətinin açılması, inam və etiqadların milli düşüncədə və xalq ruhunda tutduğu yeri göstərməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycanın tarix boyu Şərq və Qərb mədəniyyətlərinin kəsişmə nöqtəsində yerləşməsi səbəbilə bu mədəniyyətlərdən bəhrələnməsi, şərq türklüyü ilə qərb türklüyünün qovuşduğu məkanda olması səbəbilə hər iki cinahda yaşayan türklərə təsir göstərməsi faktı nəzərə alınaraq məsələyə elmi cəhətdən obyektiv yanaşılmışdır. Çünki mifoloji çağlardan başlayan tariximizin şifahi xalq ədəbiyyatımızda, nəsildən-nəslə ötürülən dastanlarımızda, atalar sözü və deyimlərimizdə öz əksini tapması real faktdır. Bu fikirdən hərəkət edərək deyimlərimizin min illəri yola sala-sala hər hansı dəyişikliyə uğramadan bu günə qədər gəlib çıxması məntiqi ardıcıllıqla izah edilmişdir. Digər tərəfdən, müxtəlif türk xalqlarının mifoloji dövrlərdəki inamları folklor nümunələrinə, atalar sözü, deyim və dastanlara istinadən izah edilmiş və bu izahlar imkan daxilində müqayisəli şəkildə aparılmışdır. Şərq və qərb türklüyünün mifoloji inamlarının Azərbaycanda da eynilə yaşaması onu göstərir ki, türk xalqları arasında inam birliyi minillərin sınağından uğurla çıxmış, hətta ayrı-ayrı dinləri qəbul etmiş xalqlarımız arasında belə bütün canlılığını qoruya bilmişdir. Bu da öz növbəsində türk xalqlarının mənəvi vəhdətinin tarixin heç bir dövründə pozulmadığını aydın şəkildə sübut edir. Dissertasiya işi bu sahədə atılan ilk addımdır.



**Tədqiqatın məqsədi.** Tədqiqatın əsas məqsədi aşağıdakılardan ibarətdir:

– Azərbaycan dilindəki deyimlərin mifoloji və tarixi köklərini araşdırmaq, müəyyənləşdirmək, onları digər türk xalqları arasında yayılmış inamlarla müqayisə etmək;

– Azərbaycanda işlənən bəzi deyimlərin yaranma səbəblərini mifoloji və tarixi aspektdən aydınlaşdırmaq, onları qohum xalqlardakı ekvivalentləri ilə müqayisə etmək;

– Azərbaycan və Anadolu coğrafiyasında işlənən deyimlərin əkslərini inamlarda və folklor nümunələrində axtarıb taparaq bu iki xalqın tarixin ən qədim dövrlərindən bəri eyni kökdən olduğunu göstərmək, bununla iki xalq arasındakı coğrafi, tarixi və dil birliyinin yarandığı tarixi prosesi izləmək;

– Azərbaycan türkcəsinin yayıldığı areal boyu xalq deyimlərində mifoloji və tarixi elementlərin əksində özünü göstərən qanunauyğunluğu müəyyən etmək.

**Tədqiqatın vəzifələri.** Araşdırmanın əsas vəzifəsi yuxarıda toxunulan məqsədlərə çatmaq üçün Azərbaycan türkcəsinin bəhrələndiyi mifoloji, tarixi və coğrafi məkanları müəyyənləşdirməkdən ibarətdir. Bu işin digər vəzifəsi isə yeni nəsillərə necə möhtəşəm bir tarixi keçmişə, böyük bir irsə və zəngin bir dilə malik olduğumuzu çatdıraraq onlarda milli mənlik şüurunun inkişafını təmin etməkdir.

**Tədqiqatın obyekti.** Araşdırmanın obyekti Azərbaycan dilinin çoxsaylı zəngin deyimləri, bu deyimlərin əks olunduğu kosmoqonik, mifoloji, tarixi və etnoqrafik inamlardır. Tədqiqatın predmeti isə ucsuz-bucaqsız Avrasiya məkanına, Sarıçayın döngəsindən tutmuş Adriatik dənizi sahillərinə, Avropanın ortalarına kimi səpələnmiş türk xalqları, onların dili, maddi və mənəvi mədəniyyət nümunələridir.

**Tədqiqatın metodoloji əsasları.** Azərbaycan dilçilik və folklorşünaslıq elminin yüksək elmi-nəzəri müddəaları, qazandığı uğurlar və nailiyyətlər, ədəbi-mədəni irsə tarixi-obyektivlik baxımından qiymət verilməsi tədqiqatın metodoloji əsaslarını təşkil edir. Araşdırma zamanı tarixi-müqayisəli qarşılaşdırma metodundan, diaxron və sinxron üsullardan istifadə edilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Azərbaycan dilindəki deyimlər dilçilik elminin bəlkə də ən toxunulmamış sahələrindən biridir. Xüsusilə Güney Azərbaycan sahəsi əl dəyməmiş bir xəzinədir. Bu sahəyə dilçilərin diqqətinin cəlb olunması, milli mifologiya, tarix, mədəniyyət və ana dilinin öyrənilməsi baxımından son dərəcə vacibdir. Tədqiqat həmin sahədəki boşluğu qismən də olsa doldurmaq məqsədi güdür.

**Tədqiqatın tətbiqi.** Bu tədqiqatdan Azərbaycanın ali məktəblərinin filologiya və tarix fakültələrində dilçilik, folklorşünaslıq, mədəniyyətşünaslıq üzrə xüsusi kursların tədrisi zamanı elmi vəsait kimi yararlanmaq, elmi-tədqiqat işlərində istifadə etmək olar.

**İşin aprobasiyası.** Dissertasiya işi AMEA-nın Folklor İnstitutunun Mifologiya şöbəsində yerinə yetirilmişdir. Tədqiqatın başlıca müddəaları ilə bağlı müəllifin iki kitabı, beş məqaləsi çap olunmuşdur. İddiaçı elmi konfranslarda üç məruzə ilə çıxış etmişdir.

**İşin strukturu.** Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Tədqiqatın «**Giriş**» hissəsində mövzunun aktuallığı əsaslandırılmış, məqsəd və vəzifələri, nəzəri-metodoloji əsasları göstərilmiş, elmi yenilikləri sadalanmış, nəzəri və praktiki əhəmiyyəti müəyyənləşdirilmişdir.

Dissertasiyanın birinci fəsli ***«Kosmoqonik inamlarla bağlı yaranmış deyimlər»*** adlanır. Bu fəsildə, ilk öncə, Azərbaycan xalq deyimləri ilə bağlı tədqiqatlara[1] nəzər yetirilmişdir. Həmin tədqiqatlar xronoloji ardıcıllıqla təqdim edilmiş, yeri gəldikcə bu

[1] Orucov Ə.Ə. Azərbaycanca-rusca frazeologiya lüğəti. Bakı: Elm, 1976; Hüseynov B.A. Rəvayətli ifadələr. Bakı: Uşaqgəncnəşr, 1961; Əvəzqızı M. Mərasimlər, adətlər, alqışlar. Bakı: Gənclik, 1993; Həqqi B. Türk deyimləri. Bakı: Nurlan, 2005; Qıpçaq M. Söz aləminə səyahət. Bakı: Bakı Universiteti nəşri, 2002 və s.



elmi əsərlərdəki mübahisəli məqamlara münasibət bildirilmişdir. Dissertasiyada yalnız Quzey Azərbaycanda deyil, həm də Cənubi Azərbaycanda deyimlərlə bağlı nəşr təcrübəsi incələnmişdir[2].

Atalar sözü ilə deyimlər arasındakı fərqlər üzərində də bu fəsildə dayanılmışdır. Hər şeydən əvvəl qeyd edək ki, atalar sözü forma baxımından müəyyən sözlərdən ibarət qəlibləşmiş ifadələrdir. O sözlərdən birini çıxarıb yerinə eyni mənaya gələn başqa bir sözü qoymaq qeyri-mümkündür, çünki yeni söz o atalar sözünün ifadə şəklinə əsla uymaz. Məsələn, **dərdini deməyən dərman tapa bilməz** şəklindəki atalar sözünü «dərdini deməyən dava tapa bilməz» şəklində söyləmək olmaz. Çünki o atalar sözü əvvəl sadalanan kəlmələrlə qəlibləşmişdir və onun malik olduğu bir şeriyyət vardır. Atalar sözləri ümumiyyətlə qısa, lakonik, əksərən bir ya da iki cümlədən ibarət olur. Deyimlər isə tamamilə fərqlənir. Onların özlərinə məxsus şəkil və anlayış xüsusiyyətləri vardır. Şəkli xüsusiyyətlərinə görə, birincisi, deyimlər də atalar sözü kimi müəyyən qəlibə düşmüş sözlər toplusudur. Deyimlərdə də eynilə atalar sözündə olduğu kimi bir sözü çıxarıb yerinə eyni mənalı başqa bir söz yerləşdirmək olmaz. Məsələn: **ayağı yerə yapışmaq** Heyrət etmək, heyrətdən çaşıb qalmaq. Bu deyimi **ayağı torpağa yapışmaq** şəklində desək, onun qəlibi pozular, şeriyyəti itər. İkincisi, deyimlər də atalar sözü kimi qısa və lakonik nitq vasitələridir: **Ağızdan boş** Söz tuta bilməyən, sirr saxlaya bilməyən. Deyimlər azı iki kəlmədən ibarət olur və şəkil cəhətdən iki hissəyə ayrılır:

a) Söz qrupu halındakı deyimlər: **Ac qurd** Acgöz, doydum deməyən, **ağızdan boş** Söz saxlaya bilməyən və s.

b) Cümlə şəklindəki deyimlər: **Ac qulağım, dinc qulağım** Mən heç bir siyasi mübahisəyə girişmərəm, əsla bu cür işlərə

[2] Vəfai Z. Alqışlar, qarğışlar .Təbriz: İntişarati-Zəynəb, 2000; Zəfərxah Ə. Ata-babalar deyiblər. Təbriz: İntişarati-Yaran, 1996, El biliyi sərvətimiz (Azərbaycan folklorundan). Təbriz: İntişarati-Yaran, 1996; Hisari M.H. Azərbaycan folkloru. Tehran, 2000; Hadi İ. Fərhəngi-türki-novin (türkcənin etimoloji lüğəti). Təbriz: İntişarati-Əhrari, 2000; Behzadi B. Fərhəngi-azərbaycani-farsi. Təbriz: İntişarati-Dünya, 1990; Qulkaryan Q. Fərhəngi-lüğəti-azərbaycani-farsi. Tehran: Rahnamə Press, 2002 və s.

qarışmaram, öz işimlə məşğul olaram anlamında, heç nəyə qarışmayan kimsələrin işlətdiyi ifadə.

Şəkil cəhətdən iki hissəyə ayrılan deyimlər anlayış baxımından da iki yerə ayrılır:

a) Deyimlərin əksəriyyətində qəlibləşmiş sözlərdən çıxan mənalar onların həqiqi mənaları ilə düz gəlmir. Məsələn: **abi zəmzəm** Şərab; **ac bəy, quru bəy** 1) Hər şeyini itirmiş varlı adam, müflisliklə üzləşmiş varlı. 2) Kasıb olduğu halda ucadan tullayan; **ac qarın** Yoxsul, kasıb[3].

b) Bəzi deyimlərdəki məna onların əsl mənalarıyla üst-üstə düşür. Məsələn: **Yaxşıya yaxşı, pisə pis demək** Düzünü demək; **balasının qanlı paltarı üstünə gəlmək** Övladı vurularaq həlak edilmək.

Birinci fəsildə eyni zamanda on dörd bölmə daxilində müxtəlif inamlarla bağlı xalq deyimlərinin təhlili aparılmışdır. Məsələn, Türk mifologiyasında yer alan əcdad kultlarına aydınlıq gətirilmiş, türklərdə tanrıçılıq sisteminə xüsusi yer ayrılmışdır. Çünki Göy Tanrı dini adlanan tanrıçılıqda türkün inam sisteminin mərkəzində səmavi xüsusiyyəti ilə Tanrı dayanır və yaradıcı sifətiylə hər şeyə məhz O hökmrandır [4].

Türklərin islam dinini qəbul etməsindən sonra onların inam sistemindəki adlar da əvəz olmuşdur. Əski türk dinində «Tənqri» şəklində dilə gətirilən Ulu Yaradana ərəbcədən gəlmə «Allah» deyilməyə başlanmışdır. **Allah alıb qucağına** Bəxti yeyin olan, **Allah balam deyib**, **Allah yeri ya qulum dəyib** və s.

Mahmud Kaşğari də bəzi türk tayfalarının Tənqri anlayışı barədə bunları yazır: «Yerə batası kafirlər göyə Tənqri **تنكرى** deyirlər. Onlar nəhəng bir dağ, nəhəng bir ağac kimi gözlərinə böyük görünən hər şeyə Tənqri deyirlər. Bu üzdən bu kimi şeylərə səcdə edirlər» [5].

---

[3] Altaylı Seyfettin. Azerbaycan Türkçesi Deyimler Sözlüğü. Prestij Yayınları, Ankara 2005, s. 18

[4] Kafesoğlu İbrahim. Türk Milli Kültürü. Ötüken Yayınevi, 17. basım, İstanbul-1998, s. 348

[5] Mahmut Kaşgarlı. Divan-ı Lügat İt Türk. (çev. B.Atalay), TTK Basımevi, Ankara 1992, 3. C., s. 377



Bununla yanaşı tədqiqat işində yer, su, iyə anlayışları, göy – Göytanrı, yer, göy, çadır anlayışlarına Türk mifoloji düşüncəsi kontekstində aydınlıq gətirilmişdir.

Türkün mifoloji inam sistemində göy ümumi mənada həm vahidliyin, həm də çoxluğun rəmzidir. Səmanın bütöv olması ilə Tanrının təkliyi arasında da bir rabitə vardır və bu səbəblə müqəddəs sayılır.

Azərbaycanda işlədilən və bir hadisənin vahiməliliyini, yaratdığı ürək ağrıdan təsirini dilə gətirən **elə bil göy başıma uçdu** ifadəsi də, işlədildikləri zaman diliminə baxdıqda, aralarından yüzlərlə il ötməsinə və ayrı-ayrı coğrafiyalarda istifadə edilmələrinə baxmayaraq, eyni fikrin və hissin çalarları olma baxımından maraq doğurur. Bu ifadələrdən, türklərin göyə Tanrını əks etdirdiyi halda Tanrı gözüylə baxmadığı və onun fani olduğuna inandığı başa düşülür.

Bu mənada işıq–Tanrı əlaqəsi də danılmazdır. Bəzi araşdırıcılar əski türklərin ulu dağlara, ulu ağaclara, sulara, ulduzlara, atəşə, aya və günəşə duyduğu hörməti bir tapınma, sitayiş kimi qiymətləndiriblər. Qumilyov da Çin salnaməsi "Weyşu"da türklərin hökmdar çadırının qapısının gündoğan tərəfə döndərilməsini günəşin ölkənin üstünə doğmasını təmsil etdiyini, deməli, Tanrını təmsil edən günəşin ışığına sitayiş edildiyini[6] irəli sürür.

Eyni zamanda Yakut türkləri ayla günəşin qardaş olduğuna, pis ruhların onlarla mübarizə etdiyinə və onları günün müəyyən dövründə qaranlıq dünyada həbs etdiyinə inanmışlar.

Yeraltı, yerüstü aləm də əski türk mifologiyasında önəmli rol oynamışdır. Əski türklərdə təbiət kultları yer və göyə söykənir. Təbiətdə olan hər şey canlı sayılır. **Yer ayağının altından qaçmaq** Bir şeydən çox təsirlənmək, zəlzələ olduğunu zənn etmək, heyrət etmək; **Yer qulaqlı olar, Yerin də qulağı var** Biri eşidər və s. deyimləri təbiət, yəni yer və göy kultu ilə əlaqəlidir.

---

[6] Gumilev L.N. Eski Türkler. (çev. Ahsen Batur), Birleşik Yayıncılık, İstanbul 1999, s. 118-119

İşıqlı və qaranlıq dünya, mifoloji xarakterli nağıllarımızın və təbii olaraq dastanlarımızın ən əsas motivlərindəndir. Göytanrı dinində əcdadların ruhunun işıqlı dünyada yaşadığına inanılırdı. İşıqlı dünyada yaşayan dastan və nağıl qəhrəmanları süjetin tələbinə görə ara-sıra qaranlıq dünyaya da səfərlər edir. Məsələn, Oğuz xan Qara Hulunun yaşadığı qaranlıqlar dünyasına getmişdir[7].

Azərbaycanda işlədilən **İşıqlı dünya başına iynə gözü kimi daralmaq** Çox darıxmaq və nə edəcəyini bilməmək; **İşıqlı dünyaya çıxarmaq** Xoşbəxt eləmək; şəklindəki ifadələr işıq və qaranlıq haqqındakı təsəvvürlərin dilimizdə daşlaşmış yadigarlarıdır.

Üç rəqəmi ən qədim dövrlərdən bəri türklərin mifoloji anlayışında və inam sistemində önəmli bir yerə malikdir. Türk yaradılış inamına görə, tanrı – yer və sular – insan anlayışının bünövrəsi bu üçlükdən ibarətdir. Mövləvilikdə dərvişliyə namizədin üç gün dərinin üstündə gözləməsi, ələvilərdə «Allah–Məhəmməd–Əli» üçləməsi, bəktaşilikdə qət ediləcək mənəvi mənzilin üç mərhələli olması, yakutlarda şamanın evinin qapısı önündə üç ağac əkilməsi[8], hacıların həccdə şeytana üç dəfə daş atması həm qədim dövrlərdə, həm də islam dövründə üç rəqəminin nə qədər önəmli olduğunu göstərir.

Altı, yeddi, doqquz və qırx sayları da müqəddəs rəqəmlər silsiləsinə daxil idi.

Məsələn qırx sayı islamdan öncəki türk ənənəsində önəmli yerə malikdir. Azərbaycanda işlədilən «**Qırx bağlatmaq** Qırxıncı gün ehsan verib yası bitirmək; «**Qırx saxlamaq (tutmaq)** Yas tutmaq; **Qırxı çıxmaq** Saxlanan yas bitmək; **Qırxdır, biri əskik (kəm) deyil** 1) Nöqsan deyil, deyilən qədərdir. 2) Nuh deyib peyğəmbər deməmək, inad göstərmək kimi, deyimlərin də öz

---

[7] Togan Zeki Velidi. Oğuz Destanı. Reşideddin Oğuznamesi, İstanbul 1977, s.26

[8] Ögel Bahaeddin. Türk Mitolojisi. T. T. K. Yayınları, Ankara 1989, I. C., s.91, 93-94



qaynağını həmin təsəvvürlərdən aldığını düşünmək yanlış olmazdı.

Dissertasiyanın ikinci fəsli ***«Tarix, etnoqrafiya və mərasimlərlə bağlı hadisələrdən yaranmış deyimlər»*** adlanır. Bu fəsildə azərbaycanlıların əski təsəvvürləri ilə əlaqədar bir qisim deyimlərin məna çalarlarına nəzər yetirilmişdir.

Əski Türk inancına görə, od da müqəddəs olub su kimi təmizdir, hər şeyi paklaşdırmaq xüsusiyyətinə malikdir. Əski türklərdə atəşə hörmətlə yanaşılması onun həm Tanrı tərəfindən göndərilməsi, həm də təmizləyici və paklayıcı qüdrətinin olduğuna inanılmasındandır. Türklər atəşə bu xüsusiyyətinə görə hörmətlə yanaşıblar. Orta Asiya və Sibir türklərinin inancına görə, od da göydən gəlmişdir. Bu isə göylə od arasında müqəddəs bağlılığın olduğuna gözəl bir nümunədir..

Azərbaycanda işlədilən, **iki od arasında qalmaq** deyiminin də ən qədim bir ritualın mirası olduğu fikrindəyik.

Azərbaycan türkcəsi, min illəri yorub yola salan və hələ də davam edən bir çox inamı öz yaddaşında qoruyub saxlayır, yaşadır.

**Qam-şaman-dədə keçidi.** Türkə xas olan dəyərləri yozlaşdırmaq məqsədini güdən və ya onu yaxşı başa düşə bilməyən bir sıra araşdırıcılar və alimlər türklərin inamı barədə öz anlayışlarındakı politeizm yolunu izləyiblər. Yuxarıda da göstərdiyimiz kimi, tanrıçılığı yayan və ya təmsil edənlər qam ya da şaman deyilən şəxslərdi. Araşdırıcıların bəziləri tanrıçılığı bütpərəstlik, bəziləri isə cadugərlik kimi qəbul etmişdir. Qamların və ya şamanların dini rituallarda nümayiş etdirdikləri hərəkətləri başqa xalqlarda müşahidə olunan bütpərəstlik və cadugərliyə xas davranışlara oxşadan xarici tədqiqatçılar göytanrı dininə də cadugərlik və bütpərəstlik kimi yanaşıblar ki, bu da bəri başdan hökm verməkdən savayı bir şey deyildir. Təəssüf ki, bəzi türk araşdırıcılar da bilərək və ya bilməyərək bu düşüncənin təsir dairəsinə düşmüş, qədim vaxtlarda ozanlıq, qamlıq kimi adlanan, sonradan rus alimləri tərəfindən şamanizm adı verilən peşəni, bir

din kimi qəbul etmişdir[9]. Hətta Radlov qədər ciddi bir türkoloq da şamanlığı bir din deyə qəbul edərək[10] səhvə yol vermişdir.

Türk törələri türklüyün ruhunu və milli varlığını müəyyən qəlibə salan, bizlərə toplumda nəzarət edən dəyərlərin yekunudur. Heç kəsin olmadığı yerlərdə belə törəyə zidd hərəkətlər edə bilmərik, çünki töröni ayaq altına salan şəxs o andan başlamış daxilində yaranacaq və onu narahat edəcək günahkarlıq hissinin pəncəsindən yaxasını qurtara bilməyəcəyini bilir. Türk törəsi dünyaya gələndən ölənə kimi insanın həyatında əsrlər boyu hökmran olmuşdur. Törələrimiz atalar sözündə və deyimlərimizdə də yaşayır. Çin hökmdarı göytürk xaqanı İşbara xaqana xəbər yollayır ki, adət və ənənələrini dəyişdirsinlər. İşbara xaqan da miladi 58-ci ildə Çin imperatoruna yazdığı məktubunda deyir: «Bizim adət və ənənələrimiz çox qədim əsrlərdən bəri yaranmışdır. Onları dəyişdirməyə mənim gücüm çatmaz»[11]. Deməli, türk dövləti özəl qanunlara söykənən bir təşkilatdır, ancaq törələr çevrənin və mövcud imkanların xüsusiyyətinə görə nizamlana bilirdi.

Türkün dövlətçilik anlayışı cahanşümuldur. Dövlət və millətin torpağını, bir sözlə, vətənini təşkil edən yer və sular müqəddəsdir. Xaqanın əsl vəzifəsi də hər hansı qarşılıq ummadan onları qorumaqdır. Şübhəsiz ki, bu da insana duyulan məhəbbətdən irəli gəlir, çünki vətən olmazsa, xalq da olmazdı. Xaqan ilə xalq arasında hər hansı fərqin olmadığını, fərqin sadəcə olaraq xalqa, dövlətə və vətənə xidmətdə özünü göstərdiyini sübut edən ən gözəl nümunə Qazan xanın hər il öz evini yağmalatması hadisəsidir[12]. Xalqı bir yerdə tutan, ondakı vəhdəti yaradan isə

[9] Ocak Ahmet Yaşar. Alevi ve Bektaşi İnançlarının İslam Öncesi Temelleri. İletişim yayınları, 7. baskı, İstanbul 2009, s. 71-73

[10] Radloff W. Sibiryadan Seçmeler. (çev. A. Temir) Kültür Bakanlığı Yayınları, İstanbul 1976, s. 232

[11] Ögel Bahaeddin. Türklerde Devlet Anlayışı. Başbakanlık Basımevi, Ankara-1982, s. 311

[12] Schmiede H. Achmed. Kitab-ı Dədəm Korkut. Türkiye Diyanet Vakfı Yayınları, Ankara, 2000, s. 168



törələr idi. Xaqanın başlıca vəzifələrindən biri də türk millətinin elini (dövlətini) və törəsini nizama salmaq olmuşdur.

Oğuz xaqan bizim eradan əvvəl 117-ci ildə Çin xaqanına yazdığı məktubuna «Göy tərəfindən taxta çıxarılmış Böyük Hun imperatoru Çin imperatorunun yaxşı olub-olmadığını hörmətlə soruşur»[13] sözləri ilə başlayırdı. Türk xaqanları «xalqa xidmət haqqa xidmətdir» prinsipinə tarix boyu sadiq qalmışdır, çünki xaqan Tanrının yer üzündəki kölgəsidir və xalqı Tanrı adından idarə etdiyinə görə xalq da Tanrının istədiyi düz yolda getməyə, bir sözlə, yazılmamış qanunlar olan törələrə uymağa məcburdur. Məsələn Roma hüququna görə kral daxili və xarici siyasətə hakim idi, bütün səlahiyyətləri öz əlinə cəmləşdirmişdi, bir sözlə, hakimi-mütləq olaraq ictimai və hüquqi həyatı nizama salan əsasları təyin edirdi. Törələri ayaq altına salanlar və ya onlara asi olanlar nəticəsinə də dözməliydilər.

Əski türk toplumunda insanlar şəxsi hüquqa malik idi. Hərənin daşınar və daşınmaz əmlakı, özəl mülkiyyət hüququ vardı. Məsələn X əsrdə bulqar türkləri torpaqlarından əldə etdikləri məhsuldan xaqana heç nə verməmək hüququna malikdi. Xəzər xaqanı və idarəçiləri xalqın mülkünə əl uzada bilməzdi. Türk dövlət ənənəsində quldarlıq və zadəganlıq yoxdu[14]. Bir sözlə qədim türklər eradan əvvəlki tarixlərdə imperiya yaratmış və o imperiya daxilində yaşayan hər bir vətəndaşa indiki mənada demokratiyanın əsasını təşkil edən insan azadlığını, seçib seçilmək hüququnu və öz mədəniyyətini qoruyub saxlayaraq inkişaf etdirmək imkanını bəxş etmişlər. Yuxarıda işarə edildiyi kimi, Dədə Qorqud dastanlarında Qazan xanın ildə bir dəfə evini yağmalatması hadisəsi də xaqanla xalq arasında var-dövlət cəhətdən böyük fərq yaranmamasına, yəni xaqanın firavan ömür sürərkən xalqın ehtiyac içində olmamasına xidmət göstərirdi. Avropa hun hökmdarı Atilla, Bizans dövlətinin elçilik həyatini

[13] Ögel Bahaeddin. Türk Kültürünün Gelişme Çağları. Türk Dünyası Araştırmaları Vakfı Yayını, İstanbul-1988, s.346

[14] Kafesoğlu İbrahim. Türk Milli Kültürü. Ötüken Yayınevi, 17. basım, İstanbul-1998, s. 239

qəbul etdikdə bizanslılar onun adi bir çadırda, ehtişamdan uzaq sadə bir həyat sürdüyünün şahidi olmuş və heyrətə düşmüşdülər. Atilla qonaqlara gümüş qablarda yemək verdirdiyi halda özü ağacdan yonulmuş qablarda, ağac qaşıqla yemək yeyərdi[15].

Əski türklərdə yasaqlar xüsusi xarakter daşıyırdı və onlara uymayanlar xaqana, eləcə də Tanrıya asilik etmiş olurdu. Hunlarda və göytürklərdə adam öldürmək, oğurluq eləmək, sülh zamanı özgəsinə qılınc çəkmək, qeyri-qanuni cinsi əlaqə qurmaq, ləyaqəti tapdalamaq, ordudan qaçıb fərari olmaq və vətənə xəyanət etmək edamla cəzalandırılırdı. Göytürklərdə məhkəmə işi üç pilləliydi: xalq, qurultay, yəni bəylərin qərarı və xaqan[16]. Cinayətlər də bu sıraya görə mühakimə edilir və hər kəs layiq olduğu cəzanı alırdı.

Oğurluq eləyənin başının kəsilməsini və kəlləsinin atasının boynuna ölənə kimi asılmasını məcbur edən qanunun əsas mahiyyəti toplumun əxlaqını zəhərləyən, birlik və bərabərliyini pozan hər cür cinayətlərdən gələcək nəsilləri yayındırmaqdı. Belə qanunlar müasir dövrə görə qəbul edilməz kimi görünə bilər. Ancaq qədimlərdə bu cür qanunlar sayəsində təkcə birlik və bərabərliyini qoruyan toplumların özünü yaşada bildiyini, vətənini və dövlətini qoruya bildiyi düşünülərsə, hər şey öz axarına düşər. Verilən bu cəzalar insan hüquqlarına zidd hesab oluna bilməz, çünki həmin qanunlar insanı pis əməllərdən yayındırmağı, dinc bir dünya yaratmağı, hamının əmin-amanlıq içində firavan və asudə həyat sürmək məqsədini güdürdü. Azərbaycanda işlədilən **boynuna torba asmaq** deyimi də həmin tarixi səbəbə görə yaranmışdır.

**Sağ-sol.** Sağ və sol insanda yön anlayışı ilə bağlı olaraq ortaya çıxsa da, sonralar hər xalqın özünəməxsus dəyərlərini əks etdirən sözlər halına gəlmişdir. Kainatdakı dualizm, ikili ziddiyyət özünü burada da göstərir və sağ tərəf bütün xalqlarda üstün

---

15 Nemeth Gyula. Attila və Hunları. (Çev. Ş. Baştav) AÜ. DTCF Yayını, Ankara 1982, s. 113

16 Halil Cin-Ahmed Akagündüz. Türk Hukuk Tarihi. Osmanlı Araştırmaları Vakfı Yayını, İstanbul-1995, I. C., s. 71



tutulur. Bu anlayış türk mədəniyyətində də vardır, ancaq o daha çox dövlətçilik sahəsində qarşımıza çıxır.

Türkün hakimiyyət anlayışında dövlət və ya imperatorluq ona Tanrı tərəfindən ərməğan edilmişdi və o da bu böyük məsuliyyəti layiqli şəkildə qoruyub saxlamalıydı. Türk dövlət təşkilatında Oğuz xaqanla başlayan dövlətçilik ənənəsində dövlət sağ və sol olmaq üzrə iki cinahda təşkilatlanmışdır. Sağ tərəf türk tarixində həmişə müqəddəs sayılmışdır, çünki hakimiyyət həmişə bu əldə olmuşdur. «Şəcəreyi-tərakimə»də deyilir ki, Oğuz xaqan Şam vilayətində olarkən bir köləsinə qızıl yay və üç qızıl ox verdi. Ona dedi ki, qızıl yayı gündoğanda insan ayağı dəyməyən bir yerdə basdır və bir ucunu da bayırda qoy, oxları isə günbatan tərəfdə eynilə yay kimi torpağa gizlə. Köləsi bu işi görüb gəldikdən bir il sonra üç böyük oğlunu gündoğan tərəfə, üç kiçik oğlunu da günbatan tərəfə ova yolladı. Böyük oğulları qızıl yayı tapıb gətirdilər və atalarının əmri ilə yayı parçalayıb bölüşdülər. Üç kiçik oğlu isə günbatan tərəfdəki üç qızıl oxu tapıb gətirdilər və oxları da onlar bölüşdülər. Xaqan yurduna qayıtdıqdan sonra böyük toy elədi və hamını bir yerə yığdı. Böyük oğullarını çağırıb dedi ki, siz qızıl yayı tapıb gətirdiniz, adınız «bozox» olsun, kiçik oğullarım, siz də oxları tapıb gətirdiniz, sizin adınız da «üçox» olsun. İndən belə xaqanlar bozox nəslindən olsun, onlar sağda əyləşsinlər. Üçoxlar da solda əyləşsinlər. Dünya durduqca da əmrimə itaət etsinlər[17].

Oğuz dövründə ailə içində yerləşmək nizamının əsasını qoyan isə vəzir Irkıl Atadır. O, «orun» adlı törəni, yəni qanunu qoymuş və bu qanunla həm ailə içində, həm də dövlət protokolunda kimin harada əyləşəcəyi müəyyən edilmişdir. Oğuzun göydən enən bir işıq içindən çıxan qızla evlənməsindən olan oğlu Gün xan atasından sonra xaqan olduğuna görə başda əyləşirdi. Onun sağında vəliəhd olan böyük oğlu Qayı, solunda isə Oğuzun digər oğlu, yəni Gün xanın qardaşı Göy xan əyləşirdi.

---

17 Abulgazi Bahadır Han. Şecerei Terakime. Simurg Yayınları Ankara 1996, s.243-244

Süfrə başında əyləşərkən də hərənin öz yeri vardı və kəsilən heyvanın ətinin hansı qismini kimin yeyəcəyi də yenə "orun" adlı qanunla müəyyən edilmişdi[18].

Oğuz xaqanın vəsiyyəti eynilə yerinə yetirilmiş və nəsillər boyu davam etdirilmişdir. Səlcuqlar da Anadoluda bizanslılara qarşı daha yaxşı mübarizə edə bilmək məqsədilə hakimiyyətlərindəki torpaqların şərqinin və qərbinin ən ucqar yerlərində uc təşkilatları yaratmışdılar[19] ki, həmin təşkilat da hun-göytürk dövründən qalan ənənənin davamıdır.

Türk dövlət ənənəsində görülən,həmçinin ailə içində tətbiq edilən sağ və sol cinahlar eynilə Dədə Qorqudda da gözə dəyir və onun öz yerini burada da qoruduğu müşahidə olunur. Dövlət idarəsində və protokol qaydalarında hərənin öz yeri vardı və bu, pozulmaz qanun hökmündə idi. Xüsusilə qurultaylarda yer tutma və əyləşmə nizamı özünü göstərirdi. Heç kəs özgəsinin yerində əyləşə bilməzdi.

**Ailə.** Türk dövlətinin bünövrəsini ailə təşkil edirdi. Yer və sular, müəyyən mənada dövlət kimi sistemləşmiş ailəni qoruyan varlıqlardı və onların xüsusi mifoloji anlamları vardı. Ailədə ata hakimiyyəti hökmrandı; ancaq bu vəziyyət ananın ikinci planda qalması mənasında deyildi. Fiziki cəhətdən ikinci planda qalsa da, camaatın bir fərdi kimi onun da toplum içində görkəmli yeri vardı və o, bütün qurultaylarda iştirak edir, öz sözünü deyirdi. Anaya əski türklər «ög» deyirdilər ki, bu da «ev» mənasına gəlirdi. Azərbaycanın müəyyən yerlərində «ev»in «öy» şəklində tələffüz edilməsi də «ög» sözünün səs əvəzləşməsinə məruz qaldığını sübut edir. Qazaxlar da «ev»ə **üy** deyir və burada «ö», «ü» dəyişikliyi müşahidə olunur[20]. Türklərin ən qədim dövrlərində belə protokol qaydalarında ana, atadan sonra gəlirdi və ata olmayan ailəni o təmsil edirdi. İbn Bətutə «Səyahətnamə» adlı əsərində deyir: «Türk və tatar xalqları qadına böyük hörmət

[18] İnan Abdülkadir. Makaleler ve İncelemeler. TTK Basımevi, Ankara 1987, I. C., s. 242

[19] Köprülü M. Fuad. Osmanlı İmparatorluğunun Kuruluşu. Ankara 1972, s. 131

[20] Ğabitxanulı Qayrat. Qazaq Mifoloqiyasının Tıldeqı Körınısı. Arıs, Almatı 2006, s.114



göstərir. Bir fərman yazanda «sultanın və xanımın əmrilə» şəklində yazırlar»[21]. Qədim vaxtlarda türk ailəsində gündoğan tərəfdə qadınlar əyləşirdi və qadın sadəcə olaraq ev işlərini görməzdi, bunlarla yanaşı ərinin ən yaxın köməkçisi və evin yiyəsi idi. Evli qadına evin sahibi mənasında «ərlik» deyilirdi. Azərbaycanda da ərə getmə yaşına çatmış qızlara «ərlik» deyilməsi tarixi soy-kök və milli mədəniyyət yönündən maraq doğurur. Roma hüququnda isə qadınlara dövlət idarəsində heç bir hüquq tanınmamışdı[22]. Ailənin möhkəmliyi özəlliklə ananın əxlaqlı olması, saflığı və təmizliyi ilə sıx bağlı idi, çünki uşağa tərbiyə verən, ocağın dirəyi ana idi.

**Dağ-təpə-kurqan.** Türklər ulu dağlara müqəddəs bir gözlə baxmışlar, çünki dağlar Tanrıya yaxın və onunla ünsiyyət vasitəsi olaraq düşünülürdü. Ötükən dağı və ya Tanrı dağları daim müqəddəs qəbul edilirdi. Hunlar, göytürklər, hətta Çingiz xan da Ötükəni özünə paytaxt etmişdir.

Şərqi göytürklərin xaqanı daimi olaraq Ötükən dağında yaşayırdı[23] və Göytürk inamına görə də, bu dağ türkləri qoruyurdu.

Kuman-qıpçaqlar ölülərini dəfn etdikdən sonra qəbrin üstündə kiçik təpə düzəldər, onun üstünə də bir adam heykəli qoyardılar. Heykəlin üzü daim gündoğana sarı baxar, əli döşü üstündə olar və sağ əlində bir qədəh tutardı. Əski türk inamında təpə ululamanın işarəsidir. Gündoğan tərəf isə işıqlı dünya ilə bağlıdır. Günəşin şüaları da Tanrının nurunu təmsil edirdi. Hunlar hər il Xan Yoan dağına çıxıb orda Tanrıya qurban kəsərdilər. Altayda yaşayan şor və beltir türkləri də qurbanlarını daim yüksək dağ təpələrində kəsərlər[24].

Türkiyədə Dumlu Baba, Həsən Baba, Ağ Baba, Çoban Dədə, Barmaqsız Sarı Dədə, Gözəl Dədə, Quzucan Dədə,

[21] İbni Batuta. Seyahatname. Üçdal neşriyat. İstanbul 1993, s. 157

[22] Çelebican Özcan Karadeniz. Roma Hukuku. Yetkin Yayınları, on birinci basım, Ankara-2005, s. 168

[23] Divitçioğlu Sencer. Kök Türkler. Ada Yayınları, İstanbul 1987, s.79

[24] İnan Abdülkadir. Eski Türk Dini Tarihi. Kültür Bakanlığı Yayınları, İstanbul 1976, s.32

Ankarada Hüseyn Qazi, İznikdə Sancaq Dədə adlı məqbərələr də dağ və təpələrin üstündədir.

Qıpçaqların kurqanlarını müqəddəs dağlara oxşatmaları və kurqanın təpəsində bişmiş kərpicdən çadıra oxşar bir hissə düzəltmələri də ululamanın başqa bir nümunəsidir.

Gərdizi «Zeynül-əxbar» adlı əsərində doqquzoğuzların dünyadakı dağların ən yüksəyinə sahib olduqlarını, hər il bu dağa dua etdiklərini, nəzir verib qurban kəsdiklərini qeyd etmişdir [25].

Türklərin öz ölülərini müqəddəs qəbul etdikləri dağlarda dəfn etmələrinin ayrı bir yönü daha vardır. Həm Qmelin, həm də Plano Karpininin müşahidələrinə görə, sırf bu üzdən tatarlar qəbirlərində xəzinə qiymətində bəzək-düzək əşyaları olan adamların qəbirlərini qazıb onları çıxartmağa cəsarət göstərə bilməmişlər[26].

Azərbaycanda işlədilən **Dağ anası** Pəzəvəng qadın; **Dağ başına çıxarmaq** Öymək (bu deyimin gizli şəkildə ululamaq mənası da vardır); **Dağ kimi arxa olmaq** Dəstəkləmək (əski türk anlayışına görə müqəddəs dağlar onları dəstəkləyirdi) şəklindəki ifadələrin də həmin anlayışla bağlı olduğu, dağın qoruyucu xüsusiyyətini vurğuladığı və həmin inamdan bəhrələndiyi fikrindəyik.

Bəzən iki güclü insanın qarşı-qarşıya gəlməsi anında **dağ dağa rast gəlib** deyə bir ifadə işlədilir. Yenə İğdır mahalında danışılan və anamın da mənə nəql etdiyi bir əfsanəyə görə Ağrı dağı ilə Alagöz dağları vuruşub, Alagöz dağının başı Ağrının zərbindən yastılanıb, Ağrının başı da Alagözün zərbiylə ikiyə ayrılıb. Bu ifadə və anlayış da yenə dağın müqəddəsliyi ilə bağlıdır.

**Qurban və sümükləri.** Qurban mərasimi türklərin ən qədim dini rituallarından biridir. Qurbanlar daim Tanrı adına bağlanmış və bu vasitə ilə Tanrıyla ünsiyyət yaradaraq onun

[25] Şeşen Ramazan. İslam Coğrafyacılarına Göre Türkler ve Türk Ülkeleri. TTK Yayınları, Ankara 2001, s. 91

[26] Roux Jean-Paul. Orta Asyada Kutsal Bitkiler və Hayvanlar. Kabalcı Yayınları, İstanbul 2005, s. 173



razılığını almaq məqsədi güdülmüşdür. Adına qurban təqdim olunan Tanrı, əski türk inamına görə, hər şeyin hakimidir və hər şey ancaq Onun rızasıyla reallaşa bilər.

Prototürklər Göytanrıya at qurban etmişlər[27]. Altay bölgəsində Göytanrıya qurban edilən heyvanlar ümumiyyətlə ağ rənglidir.

Şamanın qurbanın ruhunu Tanrı qatına aparıb ona təqdim edəcəyinə inanılırdı; çünki onlara görə, göylərin yollarını ancaq qamlar bilirdi.

Qamlar Tanrıya nəzir deyilən qurbanın qəbul edilib-edilmədiyini bilmək üçün onun aşıq sümüyünü göyə atardılar. Yerə düşən aşıq alçı durardısa qurbanın Tanrı tərəfindən qəbul edildiyinə qənaət gətirərdi. Azərbaycanda da işi öz qaydasında gedənlər və bəxti gətirənlər barəsində **aşığı alçı durub** deyimini işlədirlər.

**Qan.** Altay türklərində insan qanının axıdılması qadağandır, çünki qanda olan gücə hörmət edilir[28]. Onlar qurbanın qanının da yerə tökülməsinə yol vermirdilər, odur ki, qurban üçün kəsilən atın sümükləri ivlərindən ayrılır və əti bütöv halda bişirilirdi. Onlar eynilə yakutlar kimi kəsdikləri qurbanın sümüklərini qayın ağacından düzəldilmiş bir taxtın üstünə qoyarlar.

Azərbaycan türklərinin yeri gəldikdə işlətdikləri **Qan əkmək** Düşmənçilik toxumu səpmək, **Qan-qoxunu yumaq** Düşmənçiliyi aradan götürmək, **Qan uddurmaq** Həyatını zəhərə döndərmək, **Qan çanağı (dağarcığı)** Bəla axtaran, fitnə salan, şəklindəki deyimlər də onların müxtəlif coğrafiyalarda yaşayan türk xalqlarıyla ortaq mədəni dəyərləri paylaşdığını sübut edir.

**Fal.** Hunlar dövründə heyvanların kürək sümüklərinin üstündəki ət tamamilə təmizlənir və oda atılaraq qovrulurdu. Sümüyün üstündə yaranan çatlar yozumlanır və gələcəklə bağlı

[27] Eliade Mircea. Şamanizm. (çev. İsmet Birkan). İmge Yayınları, Ankara 1999, s.214

[28] Roux Jean-Paul. Orta Asyada Kutsal Bitkiler və Hayvanlar. Kabalcı Yayınları, İstanbul 2005, s.48

fikirlər irəli sürülürdü. Bu gün Azərbaycanda işlədilən **Sümüyünə dammaq** Ürəyinə dammaq, məlum olmaq, bir şeyin olacağını öncədən hiss etmək deyiminin də öz mənbəyini bu ənənədən aldığını fikirləşirik.

Atilla Katalonya savaşından öncə rəmmallara əmr vermiş, onlar da kəsilən qurbanların bağırsaqları və ətindən ayrılan sümüklərin üstündəki damarlara baxaraq hərbin pis nəticələnəcəyini demişdilər. İbn Ərəbşahın dediyinə görə, Teymurun ordusundakı falçılar da qoyunların kürək sümüklərinə baxıb gələcək barədə fikirlər söyləyirmişlər[29].

**Qurd–Xıdır Nəbi–kosa–gəlin.** Tölös/Töləs/Talas/Talıs /Talış (Kao çı) xaqanının çox ağıllı iki qızı vardı və xaqan qızlarının insanlara yox, tanrılara (iyələr – S.A.) ərə getməsini istəyir və onları götürüb bir dağın təpəsinə qoyur. Qızlar Tanrını (iyə) gözləyərkən qoca bir qurd gəlir və kiçik qız onu gördükdə bacısına «Bu qurd tanrının (iyə) elə özüdür, ona ərə gedəcəyəm» deyir. Bacısı onu bu fikrindən daşındırmağa çalışsa da, qız qurdla əlaqəyə girir, bu əlaqədən də Töləslər/Talaslar törəyir[30].

Əski türk inamına görə, qurd müqəddəs heyvandır və Tanrı ilə arasında xüsusi bir münasibət vardır. Azərbaycanda işlədilən **Xıdır Nəbi qurduna dönmək** Çox təhlükəli olmaq deyimi də həmin anlayış və inamla bağlıdır.

**Daş.** Əski türklər, yağış yağdırmaq, külək əsdirmək üçün "yada" deyilən daşdan istifadə etmiş və bu daşı müqəddəs saymışlar.

Uyğurların «Köç Dastanı»nda çinlilərin uyğur dövlətini yıxmaq üçün Tanrı dağının güneyində Qutludağ adlı nəhəng bir qayanı hiylə işlədərək uyğurlardan almaları və qayanı odla qızdırıb üstünə turşu tökərək dağıtdıqdan sonra daşıyıb Çinə aparmaları, bu əsnada quşların, heyvanların səs-səsə verərək çığırışıb ulaşması, daha sonra uyğur xaqanlarının dalbadal ölməsi

[29] Roux Jean-Paul. Orta Asyada Kutsal Bitkiler və Hayvanlar. Kabalcı Yayınları, İstanbul 2005, s. 156

[30] Ögel Bahaeddin. Türk Mitolojisi. T. T. K. Yayınları, Ankara 1989, I. C., s.17-18



və bütün heyvanların, quşların, çağaların "köç, köç" deyə hayqırması nəticəsində onların doğma yurdlarını tərk edərək Beşbalıq tərəfinə köçməsi hadisəsi əski türklərin ulu dağlar və nəhəng qayalarla bağlı mifik inamını büruzə verir.

**Daş atıb başını tutmaq** And içərək bir şeyi qəbul etməmək; **Daşa dəyib başa çıxmaq** Məhv olmaq, yox olmaq şəklindəki deyimlər zahirdə daşla əlaqəli olsalar da, fikrimizcə atların və inəklərin qarnında, donuzların başında olan yada daşından qamların, şamanların yağış və ya qar yağdırmaq, külək əsdirmək üçün təşkil etdikləri mərasimlərdə onlardan istifadə etmələri ilə bağlıdır.

İlan əski türk inam sistemində özünəməxsus bir yerə malikdir və yeraltı iyəsi Ərliki təmsil edir. Altay türklərinin yaradılış əfsanəsinə görə, yasaqlanan meyvələri kimsənin yeməməsi üçün Tanrı ilanı və köpəyi keşikçi qoymuşdu. Ancaq Ərlik, Körmös Törüngəy adlı şəxsi tapıb, onu aldadır, Törüngəy və həyat yoldaşı Əjə yasaq meyvələrdən yeyirlər. Tanrı da yasağa uymayan Törüngəylə yoldaşını dindirir, onlar isə günahı köpəklə ilanın boynuna atırlar. Tanrı da ilana sən Körmös (şeytan) oldun, insanlar sənə düşmən olsun deyir[31].

Azərbaycanda işlədilən **İlanın ağına (bozuna, böyüyünə) də lənət, qarasına da (kiçiyinə də); İlanı görənə lənət, görüb öldürməyənə lənət, öldürüb quylamayana lənət** şəklindəki ifadələr ilana duyulan düşmənçiliyi büruzə verir.

Dissertasiyanın «**Nəticə**» hissəsində tədqiqat boyu əldə edilmiş qənaətlər ümumiləşdirilmişdir. Gəlinən nəticə budur ki, ən qədim adət və ənənələr doğma dilin qətiyyən pozulmamış və pozulmayacaq ən önəmli ünsürü olan deyimlərimizdə min illəri yorub yola salaraq günümüzədək gəlib çıxmışdır. Buna görə də müəyyən deyimlərə tarixin dərin qatlarına enərək nəzər salmalıyıq. Hunlar və göytürklər dövründə mövcud olduğu tarixi sənədlərdə qeyd edilən və bu dövlətlərdən də min illər qabaq

[31] İnan Abdülkadir. Tarihtə və Bugün Şamanizm. Türk Tarih Kurumu Yayınları, Ankara, 1986, s. 15-16

mövcud olmuş adət-ənənələr, qədim inam və etiqadlar ulu bir xalqın yaratdığı deyimlərdə yaşamış, milli yaddaşa həkk olunmuşdur. İnamlarla bağlı deyimlər isə mifoloji çağlarda yaranmış və əsrlərin sınağından uğurla çıxaraq heç bir dəyişikliyə uğramadan bugünkü vaxta gəlib çatmışdır. Bu səbəblə deyimlərimiz tələb edir ki, onlara bu günün yox, ən qədim vaxtların tarixi və sosioloji hadisələri işığında nəzər yetirilsin və o aspektdə izah edilsin.

Azərbaycan mədəniyyət dairəsində işlədilən deyimlərin hamısı, təbii ki, toplanmamışdır. İndiyə kimi bu sahədə çap olunan əsərlərdə ən çoxu 5500 deyim vardır, ancaq biz Azərbaycanın həm quzeyində, həm də güneyində işlədilən 23 700 deyimi əhatə edən əsərimizi 2005-ci ildə çap etdirdik. Dissertasiyada istifadə olunan deyimləri də həmin əsərimizdən götürdük. Ancaq Azərbaycan sahəsində, fikrimizcə, 50 min, bəlkə də daha artıq deyim yaşamaqdadır ki, bunlar toplanıb bir araya gətirildikcə mifoloji çağlardan başlamış ulu babaların yaratdıqları deyimlərə müraciət edərək xalqımızın keçdiyi tarixi yolu, adət və ənənələrimizi, yaradılışla bağlı inamları, qonşu xalqlara, onların mədəniyyətinə göstərdiyimiz təsirləri daha aydın və düzgün şəkildə şərh edə biləcəyik.

Deyimlərimiz onları yozumlayan araşdırıcılardan və alimlərdən din, tarix, sosiologiya, etnoqrafiya, folklor, arxeologiya və hüquq sahəsində mütəxəssis səviyyəsində bilik tələb edir. Sadalanan bu sahələr üzrə lazımi biliyə malik olmadan araşdırıcılar xalq deyimlərini müqayisəli şəkildə yozub milli mədəniyyətin dərin qatlarına nüfuz edə bilmək mümkün deyil.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı məqalələrində öz əksini tapmışdır:**


1. Azerbaycan türkçesi sözlüğü. Ankara: Milli Eğitim Bakanlığı,1994, 2 cilddə, 1300 s.
2. Azerbaycan türkçesi deyimler sözlüğü. Ankara: 2005, 1300 s.





3. «Boynuna torba salmaq» deyiminin yozumu // «Ortaq türk keçmişindən ortaq türk gələcəyinə» IV Uluslararası folklor konfransının materialları. Bakı, Səda, 2006, 505 s. səh. 344-351
4. Başına dolanmaq (dönmək), əlinə (gözünə) dönmək deyimlərinin yozumu // «Ortaq türk keçmişindən ortaq türk gələcəyinə» V Uluslararası folklor konfransının materialları. Bakı, Səda, 2007, 724 s. səh. 610-614
5. Novruz və Ərgənəkon dastanı arasındakı oxşarlıqlar // «Dədə Qorqud» jurnalı, 2008-cu il, sayı 2, səh. 80-86
6. Od-ocaqla bağlı inanclarımızın mifik kökləri // «Dədə Qorqud» jurnalı, 2009-cu il, sayı 4, səh. 56-62
7. Kosmoqonik miflərlə bağlı deyimlər // «Elmi axtarışlar» jurnalı, 2009-cu il, sayı 6 , səh. 50-56
8. Koroğlu dastanında mifik ünsürlər // «Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər» jurnalı, 2009-cu il, sayı 29, səh.130-138
9. Atasözü ve deyimler arasındaki farklar // "Karadeniz Araştırmaları" jurnalı, Bahar, 2010-cu il, sayı 25, səh. 125-134
10. «Aşıq Şikari» dastanında işlədilən xalq deyimləri // «Ortaq türk keçmişindən ortaq türk gələcəyinə» VI Uluslararası folklor konfransının materialları. Bakı, Səda, 2010, 520 s. səh. 416-420

***С.А.АЛТАЙЛЫ***

## Отражение мифологических и исторических элементов в Азербайджанских народных изречениях
## Резюме

Первая глава, в которой затрагивается история исследования Азербайджанских народных изречений, называется **«Изречения, созданные на основе космогонических представлений»,** состоит из пяти частей, в которых изучаются изречения связанные с различными культами, понятиями Танры, Йер-су, Ийе, Эюй-эюйтанры-йер у тюрков. В этой главе диссертации также изучаются изречения связанные с такими понятиями, как свет-танры, луна-солнце-зеркало, подземный мир, тьма-свет, черное-белое и т.д.,

Вторая глава под названием **«Изречения, созданные на основе обрядовых событий, истории и этнографии»** состоит из шестнадцати частей и посвящена изучению историко-этнографических и культурных аспектов Азербайджанских народных изречений. В этой главе затрагиваются изречения, созданные на основе понятий очаг, дерево-гопуз-саз, кам-шаман-деде, духовное и политическое лидерство, торе, правый-левый, семья, гора-курган, жертвоприношение и кости, кровь, мантика, змея, и т.д.

В **заключении** обобщены выводы исследования и определены направления дальнейшего изучения темы.



***S.A.ALTAYLI***

## Reflection of mythological and historical elements in the Azerbaijan national sayings
## Resume

The first chapter in which the history of research Azerbaijan folk sayings is mentioned, is called «**The sayings created on the basis of cosmogonic representations**» consists of five parts in which sayings connected with various cults, concepts «Tanrı», «Yer-su», «İye», «Göy-göytanrı-yer» at Turks are studied. In this chapter of the dissertation sayings connected with such concepts, as light-tanri, the moon-sun-mirror, the underground world, darkness-light, black-white etc. are also studied.

The second chapter called «**The sayings created on the basis of ceremonial events, stories and ethnographies**» consists of sixteen parts and is devoted studying of historical-ethnographic and cultural aspects of the Azerbaijan national sayings. In this chapter the sayings created on the basis of concepts the centre, «a tree-gopuz-saz», «the kam-shaman-grandfather», «spiritual and political leadership», «tore», «right-left», «a family», «mountain-barrow», «sacrifice and bones», «blood», «a snake», etc. are mentioned

In the conclusion the results of research are generalised and directions of the further studying of the theme are defined.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ имени НИЗАМИ**

***На правах рукописи***

**СЕЙФЕДДИН АЛИ оглы АЛТАЙЛЫ**

# ОТРАЖЕНИЕ МИФОЛОГИЧЕСКИХ И ИСТОРИЧЕСКИХ ЭЛЕМЕНТОВ В АЗЕРБАЙДЖАНСКИХ НАРОДНЫХ ИЗРЕЧЕНИЯХ

**10.01.09 – Фольклористика**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени доктора философии по филологии**

**Б А К У – 2012**